İQTİSADİ ARAŞDIRMALAR VƏ TƏDRİS MƏRKƏZİ

# Beynəlxalq Mühasibat Uçotunun Əsasları (Maliyyə Uçotu) üzrə **Məsələlər və Testlər Toplusu**

**Müəllif: Radil Fətullayev**




---

# Necə əldə etmək olar?

**Kitabı üç formada əldə edə bilərsiniz:**

1. **Ofisdən əldəetmə**
   Nəşrlərimizi birbaşa Tədris Mərkəzimizdən ödəniş edərək əldə edə bilərsiniz.
   Ünvan: Şəhriyar k. 26 (Elmlər m/st yaxınlığı, 53 nömrəli məktəbin yanı)

2. **Kuryerlə (poçtla) çatdırılma**
   Mallar sifarişçiyə kuryer və ya poçt vasitəsilə çatdırıla bilər. Bunun üçün siz ad, soyad və dəqiq ünvanınızı qeyd etməlisiniz. Kuryerlə göndəriləcəyi halda ödəniş 5 AZN, poçtla göndəriləcəyi halda isə ödəniş 4 AZN-dir. Ödəniş sifariş zamanı bank hesabına ödənilir. Çatdırılma müddəti məsafədən asılı olaraq dəyişir.
   Çatdırılma üçün əlaqə saxla: +99477 412 38 30 (WhatsApp aktivdir.)

3. **Mağazadan əldə edin**
   Bunun üçün aşağıda qeyd edilmiş istənilən mağazaya yaxınlaşaraq nəşrlərimizi əldə edə bilərsiniz.

| 28 May | Elmlər Ak. | Nərimanov | Şamaxinka |
|---|---|---|---|
| Qlobus k/e<br>Qızıl Qələm k/e<br>Kitabevi K/e<br>28 Keçid<br>Oxumalı k/e<br>Oyal, Favorit<br>Məntiq k/e<br>28 kitab evi<br>Oksford k/e | Rebus k/e<br>Kitabevim.az<br>Zəka k/e | Mənbə k/e | Bilik k/e |

Kitabın online sifarişi üçün "sifariş et" butonuna klikləyərək: Ad, soyad, ünvanınızı (poçtla çatdırılacağı halda: poçt indeksini, ad, soyad və ata adınızı) və aktiv əlaqə nömrənizi qeyd edin.

**SİFARİŞ ET**

Mobil: +99477 412 38 30
Mobil: +99477 220 70 21
Tel: +99412 480 28 45
office@iatm.az
iatm.edu.az
Şəhriyar küçəsi, 26

Radil Fətullayev

# Məsələlər və testlər toplusu

## Beynəlxalq mühasibat uçotunun əsasları (maliyyə uçotu) üzrə

BAKI–2022

**Elmi redaktor:** **i.ü.fd, Ruslan Atakişiyev**
İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri

***Rəyçilər:*** **Mehdi Babayev**
Bakı Hesabat Mərkəzinin direktoru

**i.ü.fd, Xalid Kərimli**
Embawood şirkətinin strateji idarəetmə üzrə rəhbəri, ACCA üzvü

**i.ü.fd, Ceyhun Məmmədov**
Xəzər Universitetinin "İqtisadiyyat və Menecment" fakültəsinin dekanı

**Radil Fətullayev.**
Beynəlxalq mühasibat uçotunun əsasları (Maliyə uçotu) üzrə məsələlər və testlər toplusu.

Maliyyə hesabatı formalarının hazırlanması üzrə biliklərini yoxlamaq və onları sərbəst şəkildə tətbiq etmək istəyənlər üçün vəsait.

ISBN: 978–9952–508–06–2

Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2022, 352 səh.

Kitab mühasibat uçotunu sıfırdan başlayaraq daha asan formada öyrənmək istəyənlər üçün ən vacib mövzuları, o cümlədən maliyyə bərabərliyi, müxabirləşmələr və maliyyə hesabatlarının hazırlanması və təhlili ilə bağlı mövzuları əhatə edir.

Kitabın Azərbaycanda nəşr hüquqları İqtisadi Araşdırmalar və Tədris Mərkəzinə aiddir. Müəllifin icazəsi olmadan kitabın qismən və ya tamamilə təkrar çapı, yayılması, elektron və ya mexaniki üsulla surətinin çıxarılması qadağandır !

© İqtisadi Araşdırmalar və Tədris Mərkəzi (İATM), 2022

İqtisadi Araşdırmalar və Tədris Mərkəzi MMC
AZ1100, Bakı şəhəri, Şəhriyar küç., 26
Tel: (+99412) 480 28 45, +994 77 412 38 30, +99477 277 38 91
E-mail: office@iatm.az
www.iatm.az

İQTİSADİ ARAŞDIRMALAR VƏ TƏDRİS MƏRKƏZİ

İATM NƏŞRLƏRİ

# "Beynəlxalq mühasibat uçotunun əsasları (Maliyyə uçotu) üzrə məsələlər və testlər toplusu" nəşrinin

## MƏSLƏHƏT QRUPUNUN ÜZVLƏRİ



| | | |
|---|---|---|
| **Firudin Sultanov**<br>*Bakı Mühəndislik Universitetinin mühasibat uçotu kafedrasının müdiri, İqtisad üzrə fəlsəfə doktoru* | **Elsevər İbadov**<br>*Bakı Mühəndislik Universitetinin mühasibat uçotu kafedrasının müəllimi, İqtisad üzrə fəlsəfə doktoru* | **Abdulkərim Sadıqov**<br>*Azərbaycan Dövlət İqtisad Universitetinin "Müha-sibat uçoti və audit" kafedrasının müəllimi* |
| **Namiq Əlizadə**<br>*Aqrokimya MMC-nin Maliyyə direktoru, İqtisad üzrə fəlsəfə doktoru* | **Aqil Səfərov**<br>*İATM-in baş mühasibi və təlimçisi* | **Mahmud Abasquliyev**<br>*Taccl Groupun baş mühasibi, İATM-in təlimçisi* |
| **Emin Kazımov**<br>*Milli Hematologiya və Transfuziologiya Mərkəzi PHŞ-in Maliyyə və təchizat şöbəsinin müdiri, İATM-in təlimçisi* | **Fərid Nuriyev**<br>*İATM-in mühasib təlimçisi* | **Cavid Vəlizadə**<br>*Veysəloğlu Şirkətlər Qrupu Ulduz şokolad fabrikinin baş mühasibi, İATM-in təlimçisi* |
| **Mübarək Aydəmirov**<br>*İATM-in təlimçisi* | **Yusif Abasəlizadə**<br>*İATM-in asistant təlimçisi* | **Abdullah Adilli**<br>*Bakı Biznes Universitetinin mühasibat uçotu üzrə müəllimi* |
| **Həsən Rəşidov**<br>*Gəncliyə Yardım Fondunun Maliyyə şöbəsinin müdir müavini* | **İlahə Mustafayeva**<br>*İATM-in təlimçisi* | **Rəşad Muradov**<br>*Azərbaycan Beynəlxalq Bankı ASC / Mühasibatlıq Departamenti / Uçot və hesabatlılıq şöbəsi / Baş mütəxəssis* |

Məsləhət qrupunda iştirak edən şəxslər kitabın hazırkı vəziyyətə gəlməsində əməyi olan, o cümlədən mövzuların təkmilləşdirilməsi ilə bağlı xüsusi məsləhətləri ilə İATM-ə dəstək verən mütəxəssislərdir.

Gələcəkdə kitabın məsləhət qrupuna qoşulmaq istəyən ekspertlər iatmneshrleri@gmail.com -a yazılı şəkildə müraciət edə bilər.

Məsləhət qrupunun bütün iştirakçılarına İATM adından dərin təşəkkürümüzü bildiririk.

# M Ü N D Ə R İ C A T

**Ön söz ..........................................................................................10-13**

**I HİSSƏ: MƏSƏLƏLƏR TOPLUSU**

**Fəsil 1. Mühasibat bərabərliyində əməliyyatların qeydiyyatı ..........................................................................................14-25**

Məsələ 1.1. Azot şirkəti *(Nümunə)*..........................................................15
Məsələ 1.1-in həll cədvəli ..........................................................16
Məsələ 1.2. Aurum şirkəti ..........................................................16
Məsələ 1.3. Argentum şirkəti ..........................................................17
Məsələ 1.4. Niccolum şirkəti ..........................................................17
Məsələ 1.5. Fosfor şirkəti..........................................................18
Məsələ 1.6. Arsen şirkəti..........................................................19
Məsələ 1.7. Stibium MMC .......................................................... 20
Məsələ 1.8. Bismut şirkəti..........................................................21
Məsələ 1.9. Polonium QSC..........................................................21
Məsələ 1.10. Torium firması..........................................................22
Məsələ 1.11. Niobium ASC ..........................................................23
Məsələ 1.12. Sirkonium şirkəti ..........................................................24

**Fəsil 2. Əməliyyatların ikili yazılış üsulu ilə qeydiyyatı və ilkin sınaq balansının hazırlanması.....................................26-41**

Məsələ 2.1. Renium şirkəti *(Nümunə 1)*..........................................26
Məsələ 2.1- in həlli..........................................................27
Məsələ 2.2. Berillium şirkəti *(Nümunə 2)*..........................................29
Məsələ 2.2- nin həlli .......................................................... 30
Məsələ 2.3. Radium MMC ..........................................................33
Məsələ 2.4. İridium MMC..........................................................34
Məsələ 2.5. Kalsium MMC..........................................................35
Məsələ 2.6. Maqnezium şirkəti ..........................................................36
Məsələ 2.7. Stronsium MMC..........................................................37
Məsələ 2.8. Terbium MMC..........................................................39
Məsələ 2.9. Barium MMC .......................................................... 40

**Fəsil 3. Düzəliş qeydləri və düzəliş olunmuş sınaq balansı, müvəqqəti hesabların bağlanması və son sınaq balansı 42-62**
Məsələ 3.1. Neptun şirkəti *(Nümunə 1)* ........ 42
Məsələ 3.1- in həlli ........ 43
Məsələ 3.2. Flüor şirkəti *(Nümunə 2)* ........ 47
Məsələ 3.2-nin həlli ........ 48
Məsələ 3.3. Sezium şirkəti ........ 54
Məsələ 3.4. Fransium MMC ........ 55
Məsələ 3.5. Brom MMC ........ 56
Məsələ 3.6. Astat MMC ........ 57
Məsələ 3.7. Xlor ASC ........ 58
Məsələ 3.8. Yod ASC ........ 59
Məsələ 3.9. Kalium şirkəti ........ 61

**Fəsil 4. Sınaq balansından maliyyə hesabatlarına keçid 63-91**
Məsələ 4.1. Uran şirkəti *(Nümunə 1)* ........ 63
Məsələ 4.1-in həlli ........ 64
Məsələ 4.2. Silisium şirkəti *(Nümunə 2)* ........ 69
Məsələ 4.2-nin həlli ........ 70
Məsələ 4.3. Neptun şirkəti *(Nümunə 3)* ........ 78
Məsələ 4.3-ün həlli ........ 79
Məsələ 4.4. Flüor şirkəti *(Nümunə 4)* ........ 81
Məsələ 4.4-ün həlli ........ 82
Məsələ 4.5. Tallium MMC ........ 84
Məsələ 4.6. İndium MMC ........ 85
Məsələ 4.7. Qallium MMC ........ 86
Məsələ 4.8. Alüminium MMC ........ 87
Məsələ 4.9. Qurğuşun Şirkəti ........ 88
Məsələ 4.10. Bor Şirkəti ........ 90

**Fəsil 5. Ticarət əməliyyatları və malların uçotu........... 92-103**
Məsələ 5.1. Damla şirkəti *(Nümunə 1)* ........ 92
Məsələ 5.1-nin həlli ........ 93
Məsələ 5.2. Supermarket ........ 97
Məsələ 5.3. Minimarket ........ 97
Məsələ 5.4. Rodium şirkəti ........ 98
Məsələ 5.5. Natrium şirkəti ........ 99

Məsələ 5.6. Nadir Qurbanov (fərdi sahibkar) ............................ 100
Məsələ 5.7. Serium MMC..........................................................................101
Məsələ 5.8. Rubidium şirkəti .................................................................102
Məsələ 5.9. Texnesium şirkəti...............................................................103

**Fəsil 6. Ticarətdə satılan mallarının maya dəyərinin hesablanması metodları ..................................................................104-107**
Məsələ 6.1. Zəfər market *(Nümunə)*...............................................104
Məsələ 6.1 - in həlli ....................................................................................105
Məsələ 6.2. Kayzer şirkəti........................................................................105
Məsələ 6.3. Şah MMC ...............................................................................106
Məsələ 6.4. Qalay MMC...........................................................................107
Məsələ 6.5. Total şirkəti ..........................................................................106

**Fəsil 7. Debitor borcları və ümidsiz borclar................. 108-123**
Məsələ 7.1. Helium MMC *(Nümunə)*................................................108
Məsələ 7.1-in həlli .......................................................................................110
Məsələ 7.2. Litium MMC ........................................................................ 117
Məsələ 7.3. Palladium MMC ................................................................ 118
Məsələ 7.4. Ksenon MMC....................................................................... 118
Məsələ 7.5. Neon MMC ...........................................................................119
Məsələ 7.6. Arqon MMC .........................................................................120
Məsələ 7.7. Radon MMC......................................................................... 121
Məsələ 7.8. Kripton MMC...................................................................... 122

**Fəsil 8. Qiymətləndirilmiş öhdəliklər ............................ 124-127**
Məsələ 8.1. Titan Telekom *(Nümunə)*..............................................124
Məsələ 8.1-in həlli ..................................................................................... 125
Məsələ 8.2. Rəngsaz şirkəti ................................................................. 125
Məsələ 8.3. Günəş Telekom.................................................................. 126
Məsələ 8.4. Xrom MMC.......................................................................... 126
Məsələ 8.5. Ferrium Sığorta ................................................................. 127

**Fəsil 9. Kreditor borcları və digər öhdəliklər............... 128-138**
Məsələ 9.1. Hidrogen şirkəti *(Nümunə)*.........................................128
Məsələ 9.1-in həlli ...................................................................................... 130
Məsələ 9.2. Oksigen şirkəti ...........................................................................138

**Fəsil 10. Torpaq, tikili və avadanlıqlar ..........................139-150**
Məsələ 10.1. Adana şirkəti *(Nümunə 1)*...........................................139
Məsələ 10.1-in həlli..................................................................................140
Məsələ 10.2. Nargin MMC *(Nümunə 2)*............................................140
Məsələ 10.2-nin həlli.................................................................................141
Məsələ 10.3. Samarium MMC *(Nümunə 3)*....................................142
Məsələ 10.3-ün həlli..................................................................................143
Məsələ 10.4. Venera şirkəti ......................................................................144
Məsələ 10.5. Şəfa firması..........................................................................144
Məsələ 10.6. Karvan MMC.........................................................................145
Məsələ 10.7. Betta şirkəti...........................................................................145
Məsələ 10.8. Çestor şirkəti.........................................................................146
Məsələ 10.9. Pluton şirkəti..........................................................................147
Məsələ 10.10. Yupiter MMC .......................................................................147
Məsələ 10.11. Propan MMC .........................................................................148
Məsələ 10.12. Evropium MMC ....................................................................149

**Fəsil 11. Qeyri-maddi aktivlər .........................................150-155**
Məsələ 11.1.Rito şirkəti *(Nümunə 1)*...................................................150
Məsələ 11.1-in həlli.........................................................................................150
Məsələ 11.2. Samir MMC ...............................................................................151
Məsələ 11.3. Turan MMC ...............................................................................152
Məsələ 11.4. Qoca MMC..................................................................................153
Məsələ 11.5. Qlobal Soft ................................................................................153
Məsələ 11.6. Qobustan şirkəti .....................................................................154
Məsələ 11.7. Reyban şirkəti ..........................................................................155

**Fəsil 12. İstehsal əməliyyatları və istehsalat məsrəfləri.... 156-168**
Məsələ 12.1. Berklium şirkəti *(Nümunə 2)*........................................156
Məsələ 12.1-in həlli.........................................................................................158
Məsələ 12.2. Erbium şirkəti ..........................................................................163

Məsələ 12.3. Aktinium şirkəti ... 163
Məsələ 12.4. Vanadium şirkəti ... 164
Məsələ 12.5. Volfram şirkəti ... 165
Məsələ 12.6. Platin şirkəti ... 167

**Fəsil 13. Valyuta məzənnələri ... 169-177**
Məsələ 13.1. Fermium MMC *(Nümunə 1)* ... 169
Məsələ 13.1-in həlli ... 170
Məsələ 13.2. Kükürd MMC *(Nümunə 2)* ... 171
Məsələ 13.2-nin həlli ... 171
Məsələ 13.3. Selen MMC ... 172
Məsələ 13.4. Karbon şirkəti ... 172
Məsələ 13.5. Skandium şirkəti ... 173
Məsələ 13.6. Germanium MMC ... 173
Məsələ 13.7. Gümüş MMC ... 174
Məsələ 13.8. Molibden şirkəti ... 175
Məsələ 13.9. Neodium MMC ... 175
Məsələ 13.10. Nobelium şirkəti ... 176
Məsələ 13.11. Rutenium şirkəti ... 176
Məsələ 13.12. Sellen şirkəti ... 177

**Fəsil 14. Pul vəsaitlərinin hərəkəti haqqında hesabat ... 178-185**
Məsələ 14.1. Tellur MMC *(Nümunə 1)* ... 178
Məsələ 14.1-in həlli ... 179
Məsələ 14.2. Manqan MMC *(Nümunə 2)* ... 179
Məsələ 14.2-nin həlli ... 181
Məsələ 14.3. İttrium MMC ... 182
Məsələ 14.4. Kuprium MMC ... 183
Məsələ 14.5. Kobalt MMC ... 184

**Fəsil 15. Konsolidə edilmiş maliyyə hesabatları ... 186-190**
Məsələ 15.1. Murad Holdinq ... 186
Məsələ 15.2. Şinkənd MMC ... 187
Məsələ 15.3. Cumakənd MMC ... 187
Məsələ 15.4. Dəhnə MMC ... 188
Məsələ 15.5. Aydınbulaq MMC ... 188
Məsələ 15.6. İbrahimkənd MMC ... 189

Məsələ 15.7. Qırxbulaq MMC ....189
Məsələ 15.8. Qızılarx MMC .... 190

**Fəsil 16. Qarışıq məsələlər .... 191-200**
Məsələ 16.1. Tulium MMC....191
Məsələ 16.2. Qamma MMC....192
Məsələ 16.3. Alfa MMC....193
Məsələ 16.4. Tantal MMC....194
Məsələ 16.5. Prazedium şirkəti....195
Məsələ 16.6. Prometium şirkəti....195
Məsələ 16.7. Holmium MMC ....196
Məsələ 16.8. Disprozium MMC ....198
Məsələ 16.9. Aslan firması....199

**II HİSSƏ: TESTLƏR TOPLUSU....202-283**
Bölmə 1. Müəssisə və uçot haqqında anlayışlar ....202
Bölmə 2. Mühasibat uçotunun prinsipləri.... 205
Bölmə 3. Maliyyə bərabərliyi və əməliyyatlar.... 209
Bölmə 4. Maliyyə hesabatı formaları və onların elementləri .214
Bölmə 5. Hesablar və ikili yazılış....218
Bölmə 6. Düzəliş qeydləri və müvəqqəti hesabların bağlanması ....222
Bölmə 7. Ticarət mallarının uçotu və hesabatda əksi....226
Bölmə 8. Ticarətdə malların maya dəyərinin hesablanması üsulları ....234
Bölmə 9. Debitor borclarının uçotu və hesabatda əksi ....241
Bölmə 10. Torpaq, tikili və avadanlıqların uçotu və hesabatda əksi....246
Bölmə 11. Qeyri-maddi aktivlərin uçotu və hesabatda əksi...252
Bölmə 12. Kreditor borclarının uçotu və hesabatda əksi ....258
Bölmə 13. Qiymətləndirilmiş öhdəliklər və hesabatda əksi...264
Bölmə 14. Valyuta məzənnəsi və hesabatda əksi....270
Bölmə 15. İstehsal məsrəflərinin uçotu və hesabatda əksi....275
Bölmə 16. Pul vəsaitlərinin hərəkəti haqqında hesabat.... 280

**III HİSSƏ: BREYN-RİNQ SUALLARI ............................... 285-297**

I Milli Mühasiblər Forumunda (MMF 2017) keçirilən Breyn-rinqdə isifadə edilmiş suallar ............................................. 285

II Milli Mühasiblər Forumunda (MMF 2018) keçirilən Breyn-rinqdə istifadə edilmiş suallar............................................. 290

**Məsələlərin CAVABLARI ................................................. 298-311**

**Testlərin CAVABLARI ...................................................... 312-314**

**Breyn-Rinq suallarının CAVABLARI ................................315-317**

**Əlavələr (Mühasibat uçotu üzrə formalar) ...................318-336**

**Kommersiya təşkilatları üçün yeni hesbablar planı ... 337-348**

**İstifadə olunmuş ədəbiyyat siyahısı ...............................349-351**

*Bütün əməllər kitablarda qeyd edilmişdir!*
*Kiçik və böyük hər şey sətir-sətir yazılmışdır!*
*Şübhəsiz ki, Allaha qarşı gəlməkdən qorxanlar cənnətlərdə, çay başlarındadırlar!*
*Hər şeyə qadir olan hökmdarın qatında doğruluq məclislərindədirlər!*
***Qurani-Kərim, Qəmər Surəsi, 52-55-ci ayələr***

# Ön söz

Sizə təqdim olunan bu kitab beynəlxalq mühasibat uçotunun əsasları üzrə bilik və bacarıqların formalaşması və onların praktikada tətbiq edə bilmə bacarıqlarının formalaşması məqsədi ilə yazılmışdır. Kitab İATM-in nəşri olan "Beynəlxalq mühasibat uçotunun əsasları (maliyyə uçotu)" kitabının strukturu əsasında hazırlanmışdır.

Kitab mühasibat uçotu üzrə təhsil alan tələbələr, magistrlər, doktorantlar və uçotu praktikada tətbiq edən mühasiblər, maliyyə menecerləri, auditorlar, həmçinin bu sahədə tədrislə məşğul olan müəllimlər, o cümlədən ali məktəblər üçün dərs vəsaiti kimi istifadə məqsədilə nəşr edilmişdir. Kitabda müasir dövrdə kommersiya təşkilatlarında tətbiq olunan beynəlxalq mühasibat uçotuna dair praktiki nümunələr və onların bəzilərinin həlləri, o cümlədən maliyyə bərabərliyində əməliyyatların əks etdirilməsi, onların jurnalda qeydiyyatı, sınaq balansının (dövriyyə cədvəlinin) və maliyyə hesabatı formalarının hazırlanması, həmçinin ayrı-ayrılıqda uzunmüddətli və qısamüddətli aktivlərin, öhdəliklərin, kapitalın, gəlir və xərclərin uçotuna aid test, məsələ və tapşırıqlar verilmişdir.

Qeyd edək ki, adı çəkilən kitab ilk vaxtlar (2011-cı ildən başlayaraq) nəzəriyyə kitabının tərkib hissəsi olsa da, sonradan məsələ və tapşırıqların artması nəticəsində ayrılaraq ilk dəfə 2016-cı ildə "Mühasibatlığa dair məsələlər toplusu" adı ilə nəşr olunmuşdur. 2019-cu ildən başlayaraq isə eyni kitab

"Beynəlxalq mühasibat uçotunun əsasları (maliyyə uçotu) üzrə məsələlər və testlər toplusu" adı altında nəşr olunmağa başladı. Bu gün sizlərə kitabın daha da təkmilləşdirilmiş yeni nəşrini təqdim edirik.

Kitab Mühasibat Uçotunun Beynəlxalq Standartlarına istinad olunaraq real biznes həyatında göstərilmiş müxtəlif maliyyə əməliyyatlarını özündə cəmləşdirir. Fikrimizcə, kitabdan düzgün istifadə etdiyiniz təqdirdə sizdə müstəqil şəkildə maliyyə hesabatlarını hazırlamaq bacarığı formalaşacaqdır. Həmçinin bu kitabdan istifadə edən hər bir oxucu xüsusi ilə də maliyyə, mühasibat uçotu sahəsində təhsil alanlar, müxtəlif müəssisələrdə mühasib kimi çalışanlar özlərini təkmilləşdirmək imkanı qazanacaqlar.

Fikrimizcə, "Beynəlxalq mühasibat uçotunun əsasları üzrə məsələlər və testlər toplusu" kitabındakı praktiki məsələ və tapşırıqları həll edə bilən şəxslər beynəlxalq səviyyədə tanınan ACCA və CIMA kimi təşkilatların sertifikatlarını daha asan əldə edə bilər, həmçinin 2021-ci ildən başlayaraq Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilməsi planlaşdırılan "Peşəkar mühasib" sertifikatı imtahanlarına hazırlıq zamanı da istifadə edə bilər.

Fürsətdən istifadə edərək kitabın ərsəyə gəlməsində əziyyəti keçən hərkəsə: müəlliflərə, məsələləri hazırlayanlara, yazanlara, həll edənlərə və s. dərin təşəkkürümüzü bildiririk. Xüsusilə, kitabının içərisindəki bəzi məsələlərin və testlərin hazırlanmasında yaxından dəstək göstərən İbad İbadov, Fərid Abbaslı, Mehdi Babayev, Firudin Sultanov, Elsevər İbadov, Abdulkərim Sadıqov kimi tanınmış ekspertlərə İATM adından minnətdarlığımızı bildiririk.

Həmçinin kitabda dərc edilmiş testlərin hazırlanmasında əməyi olan Xədicə Hümbətova, Qafqaz Eyvazov, Vüsal Məmmədov, Xəyalə Aydəmirova, Fatma Uğur, Elvin Həsənov, Binnət Mahmudov, Şövkət Nağıyeva, Ramilə İsmayılova, Emin Əfəndiyev və Nərgiz Əlixanova kimi İATM məzunlarına da xüsusi minnətdarlığımızı bildiririk.

Bildiyiniz kimi, hər bir işdə müəyyən qüsurların olması qaçınılmazdır. Kitabda verilmiş məsələlərdə tərtibat və texniki nöqteyi-nəzərdən müəyyən qüsurlar ola bilər. Sizlərdən xahiş edirik ki, qüsurlar aşkarladığınız zaman çəkinmədən dərhal bizə bildirin. Həmçinin kitabla bağlı təkliflərinizi də qəbul etməyə hazırıq. Həmin irad və təkliflərinizi inşaAllah kitabın növbəti nəşrlərində nəzərə alacağıq.

Kitab ümumilikdə 3 hissədən ibarətdir: Məsələlər toplusu, Testlər toplusu və Breyn-Rinq sualları.

I hissə 15 fəsildə verilmiş 120-dən çox məsələdən ibarətdir. Hər fəsildə orta hesabla 6-7 məsələ və hər bir mövzu üzrə 1-2 nümunəvi məsələnin həlli verilmişdir;

II hissəyə 16 bölmənin hər mövzusu üzrə 15-dən çox olmaqla, ümumilikdə 300-ə yaxın test daxil edilmişdir;

III bölməyə Milli Mühasiblər Forumunun (MMF-in) keçirdiyi Mühasibat uçotu sahəsində Respublika üzrə I və II Breyn-Rinq yarışmalarının sualları daxil edilmişdir.

Kitabı istifadə edən oxucularımıza effektiv nəticə əldə etmələri üçün aşağıdakı bir sıra tövsiyyələrimiz də vardır:

**Birincisi,** qeyd edək ki, kitabda verilmiş məsələlər fəsillər üzrə asandan mürəkkəbə doğru tərtib edilmişdir. Fəsil üzrə hər bir növbəti məsələ özündən əvvəlki situasiyaları da əhatə etməklə yeni bir biznes əməliyyatı ilə seçilir. Oxucuya tövsiyyə edirik ki, məsələləri həll etməyə çalışarkən çətindən deyil, asandan başlayaraq fəsildəki bütün məsələri etsin. Düşünə bilərsiz ki, sonuncu məsələ daha əhatəlidir, bunu etsək, hamısını edə bilərik. Lakin unutmayın ki, asan məsələlərdə əməliyyatlar sadə və az olsa da, maliyyə hesabatlarının hazırlanması mərhələləri çoxdur (8 mərhələdir). Bizim əsas məqsədimiz maliyyə hesabatlarını hazırlamağı vərdiş halına gətirməkdir. Əgər asandan başlayaraq hər bir məsələni etməsəniz buna nail olmaq çətin olacaq. Ona görə də fəslin əvvəlindən başlayaraq hər bir məsələni mərhələli şəkildə edin, lazım gəlsə təkrar bir daha edin. Bunun effektini özünüz də görəcəksiniz.

**İkincisi,** kitabdakı məsələ, suallar və testləri müstəqil edənlərə İATM-in nəşri olan “Beynəlxalq mühasibat uçotunun əsasları (maliyyə uçotu)” kitabındakı uyğun mövzuları oxumağı və buradakı nümunəvi məsələləri öyrənməyi məsləhət görürük. Həll etdiyiniz məsələlərin cavablarının düzgünlüyünü yoxlamaq üçün kitabın arxasındakı “CAVABLAR” bölməsinə baxın. Qeyd edək ki, “CAVABLAR” bölməsində yalnız hesablama, yekun çıxarma, hesabata çıxma üzrə tələb olunan məsələlərin cavabları verilmişdir. Bəzi məsələlərdə əməliyyatların qeydiyyatı (müxabirələşmələri) ilə bağlı mühasibat yazılışları böyük olduğundan verilməmişdir.

**Üçüncüsü,** kitabda verilmiş məsələ nümunələrində hesab nömrələrindən demək olar ki, istifadə olunmamışdır. Bunun səbəbi isə hesab nömrələrinin dəyişmə ehtimalının çox, hesab adlarının isə dəyişməmə ehtimalının az olması ilə əlaqədardır. Əgər, istəsəniz məsələləri həll edərkən kitabın arxasında verilmiş “Kommersiya təşkilatları üçün Yeni Hesablar Planı”ndan da istifadə edə bilərsiniz. Məsələləri həll edərkən həmçinin kitabın arxasına əlavə edilmiş “Mühasibatlığa dair hesabat formaları və cədvəllər”dən də istifadə edə bilərsiniz. Həmçinin kitabda bəzi sözlər qısaldılmış şəkildə verilmişdir. Bu ifadələrin geniş açıqlamasına “Beynəlxalq mühasibat uçotunun əsasları (maliyyə uçotu)” kitabında rast gələ bilərsiniz. Misal olaraq, MZHH-Mənfəət və zərərlər haqqında hesabat, KDHH-Kapitalda dəyişikliklər haqqında hesabat, PVHHH-Pul vəsaitlərinin hərəkəti haqqında hesabat, MVHH-Maliyyə vəziyyəti haqqında hesabat (Balans) və s. göstərmək olar.

**Dördüncüsü,** məsələ və tapşırıqları edərkən, əlaqəli olaraq İATM tərəfindən www.youtube.com internet səhifəsinə daxil edilmiş “Mühasibat uçotu” dərslərindən istifadə etməyiniz də faydalı olardı. Xüsusi ilə də ***“Mühasibat uçotunu öyrənməyin və öyrətməyin 4 əsas qaydası”*** adlı video dərslər sizin məsələləri daha asan şəkildə həll etməyinizə kömək ola bilər.

**Beşincisi,** bildiyiniz kimi "mühasib" sözü ərəb sözü olub hərfi mənası "hesabat verən şəxs" deməkdir. Bu da Uca Allahın 99 gözəl isimlərindən biri olan "Əl Hasib" isminin insanlar üzərindəki təcəllisidir. Əl Hasib isminin mənası qullarını qiyamət günündə hesaba çəkən deməkdir. Unutmamalıyıq ki, sonda hamımız bir mühasib kimi əməllərimizdən Onun qarşısında hesab verəcəyik. Qurani Kərim ayəsində buyurulduğu kimi "Qiyamət günü dilləri, əlləri və ayaqları etdikləri əməllər barəsində onların əleyhinə şahidlik edəcək" (Nur, 24); "Kim (dünyada) zərrə qədər yaxşı iş görmüşdürsə, onu (onun xeyrini) görəcək (mükafatını alacaq). Kim də zərrə qədər pis iş görmüşdürsə, onu (onun zərərini) görəcək (cəzasını çəkəcək)" (Zilzal, 7-8). Ona görə də hər birinizə vicdanlı, məsuliyyətli, halal, işini dəqiq və keyfiyyətli görən mühasib olmağı arzu edirəm. Çalışın halal müəssisələrin mühasibatlığını aparasınız və Allahın qaydalarına riayət edəsiniz. İnşaAllah o zaman həm dünyada, həm də axirətdə Rəbbimizin mükafatı bizlərlə olar.

Allahdan hamınıza zehin açıqlığı və faydalı elm əldə etmək diləyi ilə...

**Radil Fətullayev**

İqtisadi Araşdırmalar və Tədris
Mərkəzinin (İATM-in) Prezidenti

Əlaqə telefonları: 012 480 28 45,
Mob:(077) 233 30 29

iatmneshrleri@gmail.com

# NÜMUNƏ MƏSƏLƏLƏR

# 10 TORPAQ, TİKİLİ VƏ AVADANLIQLAR



¶ **Əhatə olunan məsələlər:**

Məsələ 10.1. Adana şirkəti
Məsələ 10.1.-in həlli;
Məsələ 10.2. Nargin MMC;
Məsələ 10.2-nin həlli;
Məsələ 10.3. Samarium MMC
Məsələ 10.3-ün həlli;
Məsələ 10.4. Venera şirkəti;
Məsələ 10.5. Şəfa firması;
Məsələ 10.6. Karvan MMC;
Məsələ 10.7. Betta şirkəti;
Məsələ 10.8. Çestor şirkəti;
Məsələ 10.9. Pluton şirkəti;
Məsələ 10.10. Yupiter MMC;
Məsələ 10.11. Propan MMC;
Məsələ 10.12. Evropium şirkəti.

## Məsələ 10.8.
## Çestor şirkəti

Çestor şirkəti yeni ofis binasının tikintisinə aşağıdakı məbləğlərdə vəsait xərcləmişdir (min manatla):

| | |
|---|---|
| Torpaq sahəsinin alışı | 2 900 |
| Tikinti üçün mal-materiallar | 1 300 |
| Tikintidə çalışanların əmək haqqı məsrəfləri | 3 100 |
| Arxitektura və memarlıq məsrəfləri | 48 |
| Sahənin hazırlanması | 362 |
| Bina ilə bağlı sair sənədləşmə xərcləri | 162 |
| Mərkəzləşdirilmiş kondinsioner sisteminin quraş-ması | 560 |
| Binanın sığorta xərci | 15 |
| Tikinti istismar verildikdən sonra aparılan təmizlik işləri | 14 |

Tikinti işləri 01.03.2018-ci il tarixində tam başa çatmış, lakin bina 01.07.2018-ci ildə istifadəyə verilmişdir. Binanın faydalı istifadə müddəti 50 il müəyyənləşdirilmişdir. Amortizasiya düz xətt metodu ilə aparılır.

**Tələb olunur:**

Yuxarıda verilənlərə əsasən binanın ilkin dəyərini və 31 dekabr 2018-ci il tarixində bitən il üzrə amortizasiya xərclərini hesablayın.

CAVAB:

### Məsələ 10.8. Çestor şirkəti

31 dekabr 2018-cü il tarixində bitən il üzrə ilkin dəyəri: 8 432 000
Amortizasiya xərci: 84320

## Məsələ 10.9. Pluton Şirkəti

Ticarətlə məşğul olan Pluton şirkətində dövr ərzində aşağıdakı əməliyyatlar baş vermişdir:

1) Müəssisə fevral ayında satmaq üçün dəzgahlar alır və bunun üçün 200 min manat vəsait ödəyir. Həmçinin, hər birinin dəyəri 800 manat olan 5 dəst kompüter avadanlıqları alır. Kompüterlərin 3 dəsti inzibati binada istifadə etmək üçündür.

2) Şirkət iyun ayında Türkiyədən xüsusi soyuducu avadanlıq alır. Avadanlıqla bağlı aşağıdakı xərcləri ödəmişdir (manatla):

- Avadanlığın alış dəyəri: 24 000
- İdxal rüsumları: 3000
- Əvəzləşdirilməyən ƏDV: 4320
- Müəssisəyə çatdırılma xərcləri: 1080
- Avadanlığın yerinin hazırlanması: 1000
- Quraşdırılma xərcləri: 300

3) Müəssisə cari ilin oktyabr ayının 25-də 20 ədəd kompüter avadanlığı alır. Müqavilə üzrə kompüterlərin hər biri eyni parametrdə olmaqla, vahidinin qiyməti 1100 manat təşkil etmişdir. Ödəniş alış tarixində nağd şəkildə edildikdən sonra

noyabrın 1-də rəhbərliyin qərarı ilə kopmpüterlərdən 12 ədədi istismar aktı əsasında istifadəyə verilir. Digər komputerlər anbara təhvil verilir və onların növbəti ilin yanvarın 10-da istismara verilməsi planlaşdırılır.

**Tələb olunur:**

1. Cari ilin sonunda aktivlərlə bağlı vəziyyətin MVHH-dəki əksini göstərmək.

CAVAB:

**Məsələ 10.9. Pluton şirkəti**

| | |
|---|---|
| **AKTİVLƏR:** | |
| ***Cəmi uzunmüddətli aktivlər*** | 58 100 |
| ***Cəmi qısamüddətli aktivlər*** | 201 600 |
| **Cəmi aktivlər** | **259 700** |

# NÜMUNƏ TESTLƏR

# Bölmə 10. Torpaq, tikili və avadanlıqların uçotu və hesabatda əksi

**1. Torpaq, tikili və avadanlığın ilkin dəyərinə aşağıdakılardan hansı aid deyildir?**

1. Alış qiyməti
2. İdxal rüsumu
3. Əvəzləşdirilən vergilər
4. Çatdırılma xərcləri
5. Quraşdırılma xərcləri
6. Təkrar quraşdırma xərci
7. Əvəzləşdirilməyən vergilər
8. Servis xərcləri

a) 6; 7; 8    b) 3; 6; 8    c) 3; 8    d) 6; 8

DÜZGÜN CAVAB: C

**2. Xidmət sektorunda fəaliyyət göstərən şirkət, xarici ölkədən alınmış avadanlıqla bağlı aşağıdakı xərcləri ödəmişdir (manatla):**

| | |
|---|---|
| - avadanlığın alış dəyəri | 12 000 |
| - idxal rüsumları | 1 500 |
| - əvəzləşdirilməyən ƏDV | 2 160 |
| - müəssisəyə çatdırılma xərcləri | 540 |
| - avadanlığın yerinin hazırlanması | 500 |
| - quraşdırılma xərcləri | 300 |

Avadanlığın ilkin dəyəri nə qədərdir?

DÜZGÜN CAVAB:
17000

**3. Torpaq, tikili və avadanlığın qiymətləndirilməsi zamanı qalıq dəyəri necə müəyyən edilir?**

a) bazar dəyəri ilə
b) ilkin dəyərlə
c) bazar dəyəri ilə ilkin dəyərin müqayisəsində ən kiçiyi ilə
d) bazar dəyəri ilə ilkin dəyərin müqayisəsində ən böyüyü ilə

DÜZGÜN CAVAB: D

**4. Mebel istehsalı ilə məşğul olan müəssisə dövr ərzində 60 000 manat dəyərində taxtakəsən dəzgahlar alır. Müəssisə bu dəzgahlar vasitəsi ilə satmaq üçün hər birinin dəyəri 2500 manat olan 5 dəst mətbəx mebeli istehsal edir.**

Verilmiş informasiya əsasında müəssisənin uzunmüddətli və qısamüddətli aktivlərinin dəyəri nə qədər olacaqdır?

DÜZGÜN CAVAB:

Uzunmüddətli aktivlər: 60000
Qısamüddətli aktivlər: 12500

**5. Torpaq, tikili və avadanlıqların uçotunun yenidən qiymətləndirmə modelində avadanlıqları hər ilin sonunda yenidən qiymətləndirmək lazımdır. Bu doğru ifadədirmi?**

a) yanlışdır
b) doğrudur

DÜZGÜN CAVAB: B